**İki sahil.-**2024.-5 iyun.-№99.-S.4.

# İqlim dəyişikliyi ilə mübarizədə birlik və həmrəylik nümayişi

## Təşkilat Komitəsinin üzvü: COP29, Azərbaycan üçün yalnız ekoloji dayanıqlılığın təmin edilməsi üçün bir platforma deyil, həm də qlobal miqyasda sülh və təhlükəsizliyin təmin edilməsi üçün vacib bir mərhələdir

**Yaqut Ağaşahqızı**

**Regionun ən güclü dövləti, beynəlxalq siyasi arenanın bərabərhüquqlu tərəfdaşı kimi müstəqil Azərbaycanın nüfuzu durmadan artır, ölkəmiz qlobal beynəlxalq tədbirlərin və taleyüklü məsələlərin müzakirəsinə ev sahibliyi edir. Neft-qaz ölkəsi olan Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-a ev sahibliyi edəcək olması ölkəmizin növbəti böyük uğurdur.**

Postsovet məkanında ilk dəfə olaraq bu mötəbər qlobal tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir. Bu eyni zamanda Beynəlxalq birliyin Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətə dünya səviyyəsində olan böyük hörməti, möhkəm dəstəyi nümayiş etdirir.

COP29 kimi mötəbər tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edəcək. Ölkəmizin ev sahibliyi edəcəyi COP29 iqlim dəyişikliyi ilə bağlı yeni yanaşmaların yaranmasına və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığa imkan verəcək. Bu nöqteyi-nəzərdən ölkəmizdə keçiriləcək COP29 mühüm beynəlxalq platformaya çevriləcək, ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının göstəricisi olacaq. Dünya bir daha görəcək ki, ölkəmizin gündəliyi "yaşıl enerji" ilə bağlıdır.

Azərbaycanın "yaşıl enerji" strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet kimi götürülür. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistemin bərpası istiqamətində ardıcıl işlər aparılır. Qarabağ və Şərqi Zərgəzurun alternativ, "yaşıl enerji"lər, karbohidrogen və karbon qazlarından azad olan seqmentlər üzrə inkişaf etdirilməsi yanaşmasının ortaya qoyulması faktiki olaraq "yaşıl enerji"yə yeni münasibətin sərgilənməsindən və bu sahədə siyasətin formalaşmasından xəbər verir.

**COP29 Təşkilat Komitəsinin üzvü, "Sağlamlığa Xidmət" İctimai Birliyinin sədri Pərvanə Vəliyeva "İki sahil"ə özəl açıqlamasında bildirdi ki,** Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi yalnız suverenliyin və ədalətin təntənəsi deyil, həm də ciddi ekoloji çağırışlar üçün fürsətlər yaradır. Uzun illər işğal altında qalan bu ərazilərdə ekosistem ciddi şəkildə məhv edilmiş, flora və fauna zərər görmüşdür. Minalar və hərbi sursatlar ərazilərin təhlükəsizliyinə risk yaratmaqla yanaşı, ətraf mühitə də mənfi təsir göstərmişdir. Bu səbəbdən, təhlükəsiz və "yaşıl gələcək" üçün minaların və digər hərbi sursatların təmizlənməsi vacibdir. Minaların ətraf mühitə təsirinin azaldılması və resursların səfərbər edilməsi ərazilərin bərpası və dayanıqlı inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Minalar təkcə insanların həyatına təhlükə yaratmır, həm də torpağın məhsuldarlığını azaldır, su hövzələrini çirkləndirir və ekosistemləri məhv edir. Azərbaycan azad edilmiş ərazilərdə mina təmizləmə əməliyyatlarını həyata keçirərək, bu əraziləri yenidən yaşıl və məhsuldar hala gətirmək üçün böyük səylər göstərir. Bu əməliyyatlar kənd təsərrüfatının inkişafına, turizmin canlanmasına və yerli əhalinin geri qayıdışına şərait yaradır.

Təşkilat Komitəsinin üzvünün sözlərinə görə, Azərbaycanın bu ərazilərdə həyata keçirdiyi mina təmizləmə əməliyyatları, ekosistemlərin bərpasına və təbii resursların qorunmasına yönəlmişdir. Eyni zamanda, bu əməliyyatlar ətraf mühitin dayanıqlılığı və davamlı inkişaf üçün vacib olan yenilənə bilən enerji mənbələrinin istifadəsini də təşviq edir. Günəş və külək enerjisi kimi təmiz enerji mənbələrindən istifadə edərək Azərbaycan ekoloji dayanıqlılığa nail olmaq üçün çalışır. Qlobal ictimaiyyətin iqlim dəyişikliyi ilə mübarizə səylərini artıracağı COP29-a hazırlıq dövründə silahlı münaqişə irsinə xüsusi diqqət yetirmək vacibdir. Ekoloji dayanıqlılıq, sülh və təhlükəsizlik arasında dərin əlaqələrin qəbul edilməsi, qlobal iqlim dəyişikliyi səylərinin uğurlu olması üçün zəruridir. Silahlı münaqişələr, ətraf mühitə zərər verərək, iqlim dəyişikliyi ilə mübarizəni daha da çətinləşdirir. Azərbaycan bu çətinlikləri aradan qaldırmaq və dayanıqlı sülh və inkişaf üçün çalışır.

Pərvanə Vəliyeva qeyd etdi ki, COP29-un məqsədi, qlobal miqyasda iqlim dəyişikliyi ilə mübarizədə birlik və həmrəylik nümayiş etdirməkdir. Bu çərçivədə, Azərbaycanın rolu xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan, öz təcrübəsi və səyləri ilə digər ölkələrə nümunə olmaqla yanaşı, beynəlxalq ictimaiyyətin diqqətini iqlim dəyişikliyi və ekoloji problemlərə yönəltməkdə mühüm rol oynayacaq. COP29, Azərbaycan

üçün yalnız ekoloji dayanıqlılığın təmin edilməsi üçün bir platforma deyil, həm də qlobal miqyasda sülh və təhlükəsizliyin təmin edilməsi üçün vacib bir mərhələdir.

Müsahibimiz diqqətə çatdırdı ki, Azərbaycanın COP29-a sədrlik etməsi böyük məsuliyyətdir və inkişaf etməkdə olan ölkələr üçün böyük bir fürsətdir. Azərbaycan inkişaf etməkdə olan ölkələrin sırasında olduğu üçün inkişaf etməkdə olan ölkələrin üzləşdiyi iqlim dəyişikliyi problemlərini daha yaxşı başa düşür. İnkişaf etməkdə olan ölkələrin üzləşdiyi problemlərin fərqində olan Azərbaycan, bu ölkələrin iqlim dəyişikliyinin yaratdığı problemlərin öhdəsindən gəlməsi və adaptasiyası üçün maliyyə resurslarının təminatına imkan verən yekun sənədin razılaşdırılması üçün çalışacaq. COP29-un uğurlu olması üçün Azərbaycanın səyləri, qlobal miqyasda ekoloji dayanıqlılıq və iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayacaqdır.

Vətəndaş cəmiyyəti fəalı vurğuladı ki, Azərbaycanın COP29-a sədrlik etməsi, ölkəmizin beynəlxalq arenada mövqeyini gücləndirəcək və qlobal iqlim dəyişikliyi ilə mübarizədə lider rolunu oynayacaq. Bu çərçivədə, Azərbaycanın təcrübəsi və səyləri, digər ölkələr üçün nümunə olacaq və qlobal miqyasda ekoloji dayanıqlılıq və sülhün təmin edilməsində mühüm töhfə verəcəkdir. Azərbaycanın bu istiqamətdəki səyləri, yalnız ölkəmiz üçün deyil, bütün dünya üçün faydalı olacaq və qlobal iqlim dəyişikliyi ilə mübarizədə yeni imkanlar açacaqdır. Ümid edirik ki, COP29 Azərbaycan üçün uğurlu bir hekayə olacaq və ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə göstərdiyi səylər dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndiriləcəkdir.